**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

Ədalət.S.7.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

№ 153 (2001) 8 oktyabr 2019-cu il

# İmaməddin Nəsimi: Məndə sığar iki cahan

(əvvəli ötən sayımızda)

**Rəvayətə görə; ləqəbi bir həllacın (yun təmizləyənin) kəramətilə əlaqədardır. Həllac Mənsurun düşüncələri, əsasən iki cur yozulmuşdur. Birinci düşüncəyə görə onun yolu İnsan-Allah-Varlıq mövzusu ətrafındadır. Həllacın fikrincə, əsl olan "Bir"dir - bu da Allahdır.**

Ancaq kainat və insan da bu "Bir"in xaricində deyil, daxilindədir. Allahın bütün özəllikləri insanda, insanın bütün özəllikləri isə Allahda mövcuddur. Kainatda, dünyada bərabərlik, bütünlük vardır. Hər şəxsin həyatı ölümündə, ölümü və həyatındadır. Buna görə də insanın "Ənəl- Həqq" deməsi doğrudur. "Ənəl-Həqq" sözünün əsl mənası "Mən yoxam, yalnız Haqq vardır" deməkdir. Bu vəziyyətdə insanın ruhu Allaha qovuşur, sufilikdə mövcud olan ən yüksək mövqeyə ucalır. O, dar ağacından asılanda da əqidəsindən dönməmişdir. Bəzi mənbələrə görə, Həllac Mənsur böyük şair Nəsiminin sələfidir. Çünki "Ənəl-Həqq" sözünü ilk işlədən məhz o olmuşdur. Həllac Mənsur bütün Yaxın Şərq ədəbiyyatında mərdlik, rəşadət, qorxmazlıq və fədakarlıq timsalı kimi məşhur olmuşdur. "Ənəl-Həqq" - mən haqqam, hürufilərin əsas şüarı olan bu ifadə Quranın 41-ci surəsinin 53-cü ayəsindən iqtibas edilmişdir. Quranda yazılıb: "Yaxında dəlillərinizi həm aləmə, həm də onların özlərinə göstərəcəyik, ta ki, onun haqq olduğunu onlara aydın olsun..."

Hürufilər bu ayəyə əsaslanaraq deyirlər ki, Allah heç zaman özü haqqında "onun haqq olduğu" sözlərini deməzdi.

Seyid imadəddin Nəsiminin gənclik illərində məşhur Azərbaycan şairi və mütəfəkkiri Fəzlullah Nəimi Astrabadi (1340-1394) ilə görüşməsi onun dünyagörüşünün artmasında dərin izlər buraxmışdır. Hürufilik təriqətinin banisi olan Fəzlullah Nəimi öz fikirlərini "Cavidannamə" adlı əsərində şərh etmiş və bu yeni təriqəti təbliğ etmək üçün səyahət etdiyi zaman 1396-cı ildə Şirvana gələrək Nəsimi ilə görüşüb dostlaşmışdır. Nəimi "Məhəbbətnamə", "Növnamə", "Ərşnamə" və sair əsərlərində hürufizmin elmi-nəzəri prinsiplərini göstərmişdir. F.Nəimi həm də istedadlı şairdir, şeirləri fəlsəfi lirikanın gözəl nümunələridir.

Fəzlullah Teymurləngin əmriylə onun oğlu Miranşah tərəfindən həbsə alınıb Naxçıvandakı Əlincə qalasına aparılaraq, orada dəhşətli surətdə edam edilmişdir.

Nəsimi ustadının öldürülməsindən sonra I Sultan Murad dövründə Anadoluya gəlir, lakin burada da təqib olunur. O, Türkiyədən Suriyaya gələrək bir müddət Hələbdə yaşayır. Onun bir beytini oxuyan gəncin boğazına ip salıb dar ağacından asmaq istəyirlər. Nəsimi bu işdən xəbərdar olub özünü hadisə yerinə çatdırır. "Şeir mənimdir, o gənc mənim xatirim üçün qəzəli özünə isnad vermişdir" - deyə tələbəsini ölümdən xilas edir. Nəsiminin düşmənləri onu asanlıqla ələ keçirdikləri üçün sevinirlər.

Şairin dərisinin soyulmasına hökm verilir. Beləliklə də 1417-ci ildə Nəsimi faciəli surətdə öldürülür, irticaçılar onu dinsiz, kafir elan etsələr də, onlar xalqın şairə dərin sevgisinə mane ola bilməmiş, Allahın verdiyi canı güclə aldıqları üçün əbədi nifrət qazanmışlar. Nəsiminin həyatı və ölüm müsibəti haqqında çoxlu əsərlər yazılmış, şifahi xalq ədəbiyyatında, aşıq şeirində Nəsimi mərdlik, qorxmazlıq və sədaqət rəmzi kimi tərənnüm edilmişdir.

XIV əsr şeirinə yeni, canlı, sadə bədii obrazlar gətirmiş Nəsimi üç dili mükəmməl bilməsi sayəsində Yaxın



Şərq bədii fikrinin ən gözəl nailiyyətlərinə yiyələnmiş, geniş elmi biliyi, parlaq istedadı, yüksək sənətkarlıq mədəniyyətinə malik ustad bir şair kimi təbliğ etdiyi kamil insan obrazınadək yüksəlmişdir. Onun yaratdığı insan pərvərlik və məhəbbət lirikası sonralar Xətai, Füzuli kimi böyük sənətkarların yolunu işıqlandırmış, onun şeirləri dünya ədəbiyyatının xəzinəsinə qiymətli bir töhfə kimi daxil olmuşdur. İnsanpərvərlik Nəsimi yaradıcılığının ana xəttini, onun canını təşkil edirdi. Sufi şeyxi şairanə ruhunun bütün qüvvət və ehtirası ilə yer gözəlini də, canlı, real insan olan gözəli də sevmiş, şairin qəlbini fəth edən sevgilisinə biganə olmamışdır.

Yazıda qeyd elədiyimiz kimi, Şərqin minlərlə təkyə və zaviyələrində Nəiminin şərqiləri ucalırdı. Hürufiərin müqəddəs duaları sayılan bu ilahi nəğmələr müqəddəs adət-ənənə və duaları sıxışdırıb aradan çıxarırdı. Haqq və ədalət, kamil insan haqqında düşüncələr, zülm və şərə qarşı mübarizə, insanın əqli-mənəvi gözəlliyinin təsdiqi bu poeziyanın əsasını təşkil edir. O, Həllac Mənsur kimi "Ənəl-Həqq" deyərək "haqqa, gerçəkliyə uyğun mənəm, puç deyiləm, haqqam" deməklə özünü tanrısı ilə vəhdətdə alırdı. Bu ifadəni "mənəm Allah" mənasında başa düşmək doğru deyildir. Özünü ruhən Allah ilə qovuşdurmaq istəyən insan dünya və həyatla bütün əlaqələrini kəsərək ikiliyə yox, birliyə könül verməlidir. Şair belə hesab edir ki, nəfsi öldürmək kamil insana məxsus ən böyük bir mənəvi qəhrəmanlıqdır. "Nəfsə qalib gəlmək Xeybər qalasını almaqdan çətindir".

Professor Aida Şahlar "Hürufilik heç zaman İslama qarşı çıxmayıb" adlı məqaləsində yazır: "Tarix boyu islam daxilində bir çox məzhəb və təriqətlər, fikir cərəyanları yaranmışdır ki, onlardan biri də hürufilikdir. Mistik bir cərəyan olan hürufilik heç bir zaman İslama qarşı çıxmamışdır. İslamla onun daxilində cücərmiş bidətçilik cərəyanları arasındakı fikir ayrılığını İslama qarşı çıxmaq kimi qələmə vermək olmaz. Çünki bu cərəyanlar özləri də əsas konsepsiyalarını məhz müqəddəs Qurandan əxz etmişlər. İslamda Həzrəti Məhəmmədin (s) bir hədisindən qaynaqlanan "nicat tapacaq ümmət" (əl-ümmə ən-naciyyə) anlamı yar. Tarix boyu hər bir cərəyan məhz özünün doğru yolda olmasını fikirləşmiş, məhz özünü "əl-ümmə ən-naciyə" hesab etmişdir. Yəni burada İslama qarşı çıxmaqdan söhbət gedə bilməz. Mübarizə fərqli düşüncə tərzi, dünyaya fərqli baxış, fərqli fəlsəfi konsepsiyalardan, fərqli həyat tərzindən qaynaqlanırdı. İslamın kökündə dayanan, üsuliddini təşkil edən təməl ehkamlar (imaməti çıxmaqla) demək olar ki, bütün məzhəb və təriqətlər tərəfindən şəksiz-şübhəsiz qəbul edilmişdir".

Fəlsəfə elmləri namizədi Aydın Əlizadə "Vəhdəti-vücud", "Vəhdəti-şühud" məqaləsində maraqlı məqamlara toxunmuşdur. "Varlığın birliyi" ("Vəhdəti-vücud") geniş yayılmış sufi təlimlərindən biridir. Bu təlimə görə, yalnız bir varlıq var, o da Tanrıdır, Ondan başqa heç bir şey yoxdur. Maddi və mənəvi aləmdə olanların hamısı Onun təzahürləridir və onların varlıqları Onun varlığından asılıdır. "Vəhdəti-vücud" təliminə görə, hər şeydə Allahın təzahürləri var.

Sufiliyin ikinci əsas təlimi "Vəhdəti-şühud" ("Şahidliyin vəhdəti") adlanır. Bu təlimdə deyilir ki, insanı Tanrı ilə qovuşmağa deyil, Onunla görüşməyə, Onun yaxınlığını hiss etməyə can atmalıdır. Buna nail olmaq üçün isə hər bir sufi ilk növbədə şəriətin bütün qanunlarına, vacib və bəyənilən göstərişlərinə mütləq əməl etməlidir. Yalnız şəriət yolu mənəvi kamilliyə gətirib çıxara bilər.

Seyid İmadəddin Nəsimi dini ehkamlardan və sufizmin nəzəri müddəalarından kor-koranə şəkildə istifadə etmir, onlardan öz idealına uyğun nəticələr çıxarır, onları humanizm ideyalarına xidmətə yönəldir. O, insanın müqəddəs və şərəfli fəlsəfəsinin dəlillərinə müraciət edir.

İmadəddin Nəsiminin "Mən bu cahana sığmazam..." seçilmiş əsərlərinə "Eşq günəşi" adlı ön sözdə professor Əlyar Səfərli yazır: "Nəsimi sözü, dirilik ruhu və can sayırdı, cahanın yaradıcısı kimi mənalandırırdı. Şairə görə söz öz-özünün tərcümanıdır, sözün eni, dərinliyi tapılmaz, söz sonsuz və bitməz-tükənməzdir. Könüldə xəzinə olan söz ilahi göylərin ən uca qatıdır, söz dənizi ucsuz-bucaqsızdır. Bütün bunlarla yanaşı, "aqil isən sözünü müxtəsər et" deyən sənətkar şeirdə yığcamlığı əsas məziyyət kimi yüksək qiymətləndirir".

Nəsiminin "Sığmazam" rədifli şeiri onun yaradıcılığının zirvəsi hesab olunur.

**Məndə sığar iki cahan, mən bu cahana sığmazam!ı**
**Gövhəri-laməkan mənəm, kövnü məkanə sığmazam!**

Burada iki cahan deyən Nəsimi insan varlığının əsası olan cism və canı, maddi və mənəvi aləmi nəzərdə tuturdu. Şairə görə yersiz gövhər olan insan Allah kimi varlığa və yerə sığa bilməz.

Habelə, iki dünya bu dünyaya sığması da məntiqə uyğun deyildir, insanın dünyaya sığan cismi, bədəni, sığmayan keyfiyyəti ağlı və xəyalıdır. Şairin ikrincə, dünya və kainat, təbiət, insan nəsli ikiliklərin təzadlarına əsaslanır, ziddiyyətli ikiliklərsiz canlı və cansız dünya yoxdur, ikiliklərin birliyə çevrildiyi varlıq ancaq Tanrıdır.

Bəli, eşq günəşi Seyid İmadəddin Nəsimi fədakar və yenilməz cəsarətlə poeziya səmasının zirvəsində qərar tutmuşdur. Onun ölümsüz şeirləri idrak nümunəsi kimi təravətini itirmir, ürəkləri fəth edir. Nəsimi şeiri oxucunu mənən ucaldır, iç dünyasını paklayır, onu əqidə və məslək mübarizəsinə səsləyir.

"Günəş batanda saralar", ancaq əsrlər ötsə də Nəsimi sənəti saralıb-solmur, daha parlaq nur saçır.

**Bəşəriyyətə həyat eşqi bəxş edən nurun işığında yol getməyə dəyər, şair!**

***İdris ŞÜKÜRLÜ,***
***tədqiqatçı jurnalist***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR